# Heydər Əliyev Mərkəzində “Astana - böyük çölün incisi” adlı sərgi açılıb






**İyulun 6-da Heydər Əliyev Mərkəzində Astana şəhərinin Qazaxıstan Respublikasının paytaxtı elan edilməsinin 20 illiyinə həsr olunan fotosərgi açılıb.**

AZƏRTAC xəbər verir ki, sərgi Qazaxıstan Respublikasının Birinci Prezidenti - Elbası Fondunun təşkilatçılığı, Heydər Əliyev Fondu və Qazaxıstanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə keçirilir.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Adil Kərimli Mərkəz haqqında iştirakçılara ətraflı məlumat verib. O, Astananın 20 illiyinə həsr edilən layihənin iki ölkə arasında yüksək səviyyədə olan münasibətlərə öz töhfəsini verdiyini qeyd edib. “Layihə Heydər Əliyev Fondu və Qazaxıstan Respublikasının Birinci Prezidenti - Elbası Fondunun birgə əməkdaşlığı çərçivəsində planlaşdırılan tədbirlərdən biridir. Bu əməkdaşlığın məqsədi ölkələrimizin tarixi, mədəni, elmi irsinin öyrənilməsi və təbliğinin genişləndirilməsi, çoxəsrlik əlaqələri olan xalqlarımızın daha da yaxınlaşdırılmasıdır”, - deyən Adil Kərimli bildirib ki, sərgidə təqdim olunan əsərlər hər bir ziyarətçidə Astana haqqında xoş təəssürat yaradacaq.

Qeyd edək ki, sərginin açılışı əlamətdar tarixə təsadüf edir. 6 iyul Qazaxıstanda bayram - Paytaxt Günü kimi qeyd olunur.

Müasirliyi və gözəlliyi ilə dünya şəhərləri arasında seçilən Astananın coğrafi baxımdan da əlverişli mövqedə yerləşdiyini deyən Qazaxıstan Respublikasının Birinci Prezidenti - Elbası Fondunun icraçı direktorunun müavini İqor Roqov bildirib ki, Qazaxıstan paytaxtının arxitekturası, eyni zamanda, milli mədəniyyəti, ənənələri tam əks etdirir. “Ölkəmizin möhtəşəm bayramını - paytaxtımızın yubileyini qeyd etdiyimiz zamanda Heydər Əliyev Fondu sayəsində biz Astanaya həsr olunmuş sərgini də məhz Azərbaycanda təqdim edirik. Bu, bizim üçün çox dəyərlidir. Hesab edirəm ki, bu sərgi vasitəsilə azərbaycanlı həmkarlarımız və dostlarımız Qazaxıstanın paytaxtı haqqında ətraflı məlumat ala biləcəklər”, - deyə Elbası Fondunun icraçı direktorunun müavini qeyd edib.

Sonra ziyarətçilər sərgi ilə tanış olublar. Ekspozisiyada Qazaxıstan paytaxtının müxtəlif tikililərinin fotosu təqdim edilib. Onların arasında planetin 90 epik binası siyahısına daxil edilmiş, Astananın əsas brendi sayılan “Bayterek”, Qazaxıstan Respublikası Prezidentinin iqamətgahı - “Ak Orda”, Astanadakı Ekspo Mərkəzindəki ən qeyri-adi binalardan biri - kürəşəkilli “Nur Alem” kimi memarlıq nümunələri var. Astana şəhərinin nadir tikililəri sırasında tanınmış britaniyalı memar Norman Fosterin layihə müəllifi olduğu binalar - “Sülh və razılıq sarayı” (“Piramida”), dünyanın çadırşəkilli ən böyük binası kimi Ginnesin Rekordlar Kitabına düşmüş “Xan Şatır” ticarət-əyləncə kompleksi və Nazarbayev Mərkəzinin binası da var.

Sərgidə qonaqlara Astana şəhərinin paytaxt elan edilməsinin 20 illiyinə həsr olunmuş “Astanada bir gün” və Burabay Milli Dövlət Təbiət Parkından bəhs edən “Burabayda bir gün” fotoalbomları təqdim olunub. Hər iki nəşr Qazaxıstan Respublikasının Birinci Prezidenti - Elbası Fondunun sifarişi ilə hazırlanıb. Birinci albomda Astananın görməli məkanları və ultramüasir binaları, onların memarlıq quruluşu və texniki xüsusiyyətləri ilə tanış olmaq olar. İkinci nəşr isə “Qazaxıstanın İsveçrəsi”nin - “Burabay” milli parkının gözəlliklərini əks etdirir.

Açılış mərasimində, həmçinin Qazaxıstanın “Turan” etno-folklor ansamblı konsert proqramı ilə çıxış edib.

“Astana - böyük çölün incisi” fotosərgisi ilk dəfə bu ilin aprelində Rusiyanın Moskva və İspaniyanın Madrid şəhərlərində ictimaiyyətə təqdim edilib. Sərgi may ayında Rusiyanın Sankt-Peterburq, iyunda isə Həştərxan şəhərlərində nümayiş olunub. Bakıdan sonra sərginin Pekin, London, Berlin və Parisdə təqdimatı nəzərdə tutulur.



**AZƏRTAC**

Respublika.- 2018.- 7 iyul.- S. 5.